Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Düşənbədə yarım ildə 93 falçı aşkarlanıb – 11 müştəri də cərimələnib

indicə




Düşənbə şəhərindəki falçıların evlərindən biri

Düşənbə polisi 2026-cı ilin ilk yarısında 93 falçılıq faktı aşkar edib. Bildirilir ki, əvvəllər cadugərliyə görə cərimələnən, amma yenidən bu işə qayıdan beş nəfərə qarşı cinayət işi açılıb. Bundan əlavə, falçıya müraciət edən 11 nəfər də inzibati qaydada cərimələnib.

Polis vətəndaşları bu mənfi halın qarşısını almağa, falçılardan uzaq durmağa və hüquq-mühafizə orqanlarına kömək etməyə çağırıb.

Tacikistanda falçılıq və cadugərlik qanunla qadağandır. Bu fəaliyyətə görə inzibati cərimə hələ 2008-ci ildə tətbiq edilib. Qanuna görə, **sehrbazlıqla məşğul olan şəxslər 7.8 min somoni (843 dollar) cərimə və ya 15 günədək həbs cəzası ilə üzləşə bilərlər.**

Bu xətanı təkrar törədənləri artıq cinayət məsuliyyəti — 150 min somoniyədək (16 min dollar) cərimə, yaxud 1 ildən 2 ilədək həbs gözləyir.

Fevralın sonunda Tacikistan DİN falçı və cadugərlərin insanları terrora sürüklədiyini əsas gətirərək onlar üçün xüsusi baza yaradıldığını elan edib. Nazirliyin statistikasına görə, **2026-cı ilin əvvəlinə ölkədə 5 mindən çox cadugər, falçı və dini təhsili olmayan (qeyri-rəsmi) molla qeydiyyata alınıb.**

## Buna da bax:

Tacikistan sakinləri çətin zamanlarında falçı və mollalara üz tuturlar

'Cənnətdə yer almaq üçün' Babayevə 420 min manat verib

'İndi bircə şamla qorunur': Savaş və bilinməzlik fonunda ruslar falçı və mistiklərə üz tuturlar

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur